**Zümrüd Cümşüd qızı Nəsibova**
**Azərbaycan Kooperasiya Universiteti, dissertant**
**E-mail: nasibova.zumrud22@gmail.com**
**UOT: 332.1: 911.6; JEL: O18, R14, R58.**

# Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmalar

***Xülasə***

*Tədqiqatın məqsədi - Qarabağ iqtisadi rayonunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmaların ümumiləşdirilməsindən ibarətdir. Bunun üçün ilk növbədə, ölkədə iqtisadi rayonlaşdırma prosesləri araşdırılmış və regional səviyyədə inkişaf proseslərinin mahiyyəti, əhəmiyyəti verilmişdir. Azərbaycanda iqtisadi rayonların inkişaf xüsusiyyətləri və bununla bağlı dövlət siyasətinin əsas məqamları verilmişdir. Ölkəmizdə iqtisadi rayonların bölgüsünün yenilənməsinə yaranmış zərurətin əsaslandırılması təmin olunmuşdur. Böyük Qarabağ Zəfərindən sonra iqtisadi rayonların sayının artırılması və işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayonun - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının əhəmiyyəti açıqlanmışdır. Tədqiqatın metodologiyası baxımından təhlil, sintez, ümumiləşdirmə və müqayisə kimi iqtisadi metodlardan istifadə olunmuşdur. İqtisadi rayonlaşdırma prosesləri ilə əlaqəli müxtəlif tədqiqatçıların yanaşmaları da diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın tətbiqi əhəmiyyəti – elmi nəticələrdən iqtisadi rayonların inkişaf proseslərinin səmərəli təşkili ilə bağlı tədbirlərin görülməsində istifadə imkanları ilə izah olunur. Tədqiqatın nəticələri – müasir şəraitdə yeni yaradılmış strateji iqtisadi rayonlarda inkişaf proseslərinin sürətləndirilməsi proseslərində bu nəticələrdən istifadə perspektivləri ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – Qarabağ işğaldan azad olunduğu bir şəraitdə iqtisadiyyat quruculuğu və sosial-iqtisadi inkişaf problemlərinin həlli istiqamətindəki imkanlar araşdırılmışdır. Qarabağ iqtisadi rayonuna daxil olan inzibati vahidlərin hər birinin sosial-iqtisadi inkişaf potensialı verilmişdir. Şuşa şəhərinin xüsusi iqtisadiyyat strukturuna malik olması açıqlanmış və burada mədəniyyət iqtisadiyyatının, eyni zamanda xidmət seqmentləri və turizm üzrə iqtisadi fəaliyyətin əsaslandırılması və bununla bağlı tədbirlərin görülməsinin vacibliyini bildirilmişdir. Ağdam şəhərinin yenidən qurulması və burada sosial, istehsal, sənaye infrastrukturunun yaradılması ilə bağlı perspektivlər təhlil edilmiş və Ağdamın sosial-iqtisadi inkişafının əsas prioritetləri verilmişdir. Qarabağın hava qapısı olan Füzuli beynəlxalq hava limanının strateji əhəmiyyəti açıqlanmışdır və Füzuli şəhərinin baş planının təsdiq olunması, burada müvafiq sosial infrastrukturun, əhalinin yaşaması üçün yaşayış massivlərinin, o cümlədən "ağıllı kənd" yaşayış massivinin salınması ilə bağlı məsələlər verilmişdir. Füzuli və Ağdam rayonlarında kənd təsərrüfatı və ümumilikdə aqrar sahənin, ilk növbədə, üzümçülüyün, pambıqçılığın, ipəkçiliyin inkişafı, eyni zamanda tikinti materialları sənayesinin inkişafı üçün böyük potensialın olduğu göstərilmişdir. Qarabağ iqtisadi rayonuna daxil olan digər inzibati vahidlərin-Bərdə, Ağcabədi və Tərtər rayonlarının sosial-iqtisadi inkişaf imkanları açıqlanmış və bu istiqamətdə prioritet fəaliyyət sahələri verilmişdir. Məqalədə baxılan problemlər üzrə tövsiyələr hazırlanmış və təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *Qarabağ, Qarabağ iqtisadi rayonu, sosial-iqtisadi inkişaf, Şuşa, Ağdam, Füzuli, Qarabağın inkişaf perspektivləri.*

## Giriş

Azərbaycan iqtisadiyyatı Cənubi Qafqazın iqtisadiyyatının 70-80%-ni təşkil edir və bütün bunların fonunda Qarabağda sosial-iqtisadi inkişafın azad edilməsi üçün əsas məsələ

30 ilə yaxın işğal altında qalan torpaqların azad olunması məsələsi idi və nəhayət, belə bir tarixi an gəlib çatdı. 2020-ci il düşmən azğınlaşaraq dəfələrlə Qarabağdan erməni silahlı birləşmələrini çıxarmaq əvəzinə və Dağlıq Qarabağa daxil olmayan rayonların belə işğalından əl çəkməməyi bəyan edərək, əksinə daha çox Azərbaycan torpaqlarının işğal edilməsi üçün bir-birinin ardınca bəyanatlar verməyə başladılar və bir neçə dəfə təmas xəttini pozaraq yaşayış məntəqələrini atəşə tutdular. Eyni zamanda, ermənistan rəhbərliyi Azərbaycan torpaqlarını heç vaxt azad etməyəcəklərinə və işğala son qoymayacaqlarına daha israrlı olduqlarını bildilər və əlbəttə, bütün bunlarla razılaşmaq qeyri-mümkün idi. Buna görə də, Azərbaycan ordusu Azərbaycan xalqının iradəsini nümayiş etdirərək, Ali Baş Komandanın rəhbərliyi altında "dəmir yumruq" kimi birləşərək, düşmənin başını əzmək və azğınlaşmış düşməni diz çökürtmək üçün əks-hücuma keçdi. Minlərlə erməni yaraqlıları və əsgərləri öldürüldü, zəlil günə salındı. Onlar fərari kimi silahlarını və postları qoyaraq qaçmağa məcbur oldular. Erməni komandanlığının kifayət qədər özlərini öyə-öyə bütün dünyaya nümayiş etdirdikləri istehkamlarının, ilk növbədə Füzuli rayonu ərazisində olan Ohanyan istehkamının Azərbaycan ordusu tərəfindən darmadağın edilməsi və ağır döyüşlərdə igidlərimizin şücaət göstərməsi nəticəsində torpaqlarımız işğaldan azad olundu, düşmən diz çökdürüldü və Qarabağdan qovuldu, sonda isə düşmən biabrçı təslimçilik aktına qol çəkdi. Qeyd edək ki, ermənilər tamamilə Qarabağdan qovulmasa da indi zəlil gündə Qarabağda sürünməkdədirlər və Dağlıq Qarabağ adlı qurum artıq tarixə qovuşmuşdur [1]. Dağlıq Qarabağ Muxtar Vilayəti çoxdan ləğv olunmuş və cəfəngiyyat status xülyası ilə yaşayan Dağlıq Qarabağ "Artsax" adlı qurum isə tamamilə tarixə qovuşmuş, ölkə Prezidentinin dediyi kimi cəhənnəmə göndərilmişdir, cəhənnəmə vasil olmuşdur. Yəni bütün bunların nəticəsində artıq Qarabağ torpaqlarımızın reablitasiyası, minalardan təmizlənməsi, sosial-iqtsadi inkişaf problemlərinin sürətləndirilməsi istiqamətində davamlı işlər görülür. Bunlar olduqca mürəkkəb məsələlərdir. Qeyd edək ki, dövlət tərəfindən bununla bağlı artıq konseptual fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, dövlət büdcəsindən məqsədli maliyyələşdirilmə mexanizmi tətbiq olunmuş və hazırda görülən işlərin hamısı Azərbaycan dövlətinin vəsaitləri hesabına, yəni dövlət büdcəsindən maliyyələşdirməklə həyata keçirilir [2]. Bu işlərin coğrafiyası və həcmi, həm də layihələrin sayı xeyli çoxdur. Qarabağda digər önəmli bir məsələ isə ölkə Prezidentinin iqtisadi rayonların potensialını, sosial-iqtisadi inkişaf xüsusiyyətlərini, qədim ənənələri, burada yaşayan insanların coğrafi və adət-ənənələrə bağlılığını nəzərə alması və ümumiyyətlə inzibatı vahid baxımından, müasir metodoloji yanaşmalardan çıxış etməsi nəticəsində ölkədə yeni rayonlaşdırma bölgüsü aparılmış və mövcud olan iqtisadi rayonların sayını 12-dən 14-ə çatdırılmışdır. Qarabağda işğaldan azad olunmuş ərazilərdə haqlı olaraq Qarabağ iqtisadi rayonunu və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır [3]. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması yaxın perspektivdə Azərbaycanın tarixi vəzifələrinin öhdəsindən gəlməkdə önəmli bir çağırışdır, mesajdır. Burada əsas hədəf Azərbaycanı Naxçıvanla birləşdirəcək dəhlizin açılması, nəqliyyat-logistika infrastrukturunun-kommunikasiyalarının yaradılması, bütövlükdə türk coğrafiyasının birləşdirilməsi uğrunda əməli addımların atılmasından ibarətdir və bu istiqamətdə artıq işlər gedir.

**Qarabağ iqtisadi rayonunun inzibati vahidlərinin inkişaf etdirilməsi prioritetlərinin təhlili**

Qarabağ iqtisadi rayonuna daxil olan rayonların və Şuşa şəhərinin hər birinin xüsusiyyətlərini qısaca qeyd etmək istəyərdik. Şuşa şəhərinin iqtisadiyyatı, ümumiyyətlə kifayət qədər spesifikdir [4]. Bu şəhərdə iri zavodların tikilməsi və yaxud da sənaye müəssisələrinin salınması üçün nə ərazi, nə də buna ciddi ehtiyac vardır. Belə ki, cəmisi 5,5 km² sahəyə malik olan Şuşanın inkişaf etdirilməsi, burada şəhər təsərrüfatının yaradılması,

xidmət sahələrinin qurulması spesifik xarakter daşıyır və nəzərə alsaq ki, irili-xırdalı şəhərdə qədim əhəmiyyət kəsb edən 300-dən çox mədəniyyət abidələri, gəzməli yerlər, məşhur insanların ev muzeyləri, məscidlər, mədəniyyət obyektləri, sənətkarlıq nümunələrini özündə əks etdirən binalar vardır və bütün bunların hər birinin dövlət tərəfindən bərpa olunması, qorunması, gələcək nəsillərə çatdırılması, şəhərin simasının qorunması xüsusi yanaşmanı tələb edir. Bu baxımdan hesab edirik ki, Şuşa şəhərinin iqtisadiyyatını formalaşdırarkən buranın sahəvi özünəməxsus iqtisadiyyat strukturu olmalıdır. Əlbəttə, bunun əsasında ilk növbədə mədəniyyətin müxtəlif seqmentləri öz əksini tapmalıdır. Burada həm teatr, kino, muzey, incəsənət nümunələri üzrə və dünyada ölkələrində incəsənət sənayesinin inkişaf etdirilməsi təcrübəsi ortaya qoyulmalıdır. Belə ki, yaradıcılıq sənayesinin inkişaf etdirilməsi məsələləri ön plana çıxmalıdır və bu sahələrin əlavə dəyər yaratmaq imkanları, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərmək perspektivi dəyərləndirilməli və həyata keçirilməlidir. Bundan əlavə, Şuşada turizmin inkişafı və turizm-rekreasiya potensialının yüksək olduğunu qeyd edə bilərik. Sovetlər dövründə burada çox iri müalicəvi Şuşa sanatoriyası fəaliyyət göstərirdi [5]. Ətraf ərazilərdə də, o cümlədən Şuşanın kənarında olan çox mühüm təbiət güşələri, gözəl və  iqlimə malik olan təbiət güşələri, bulaqlar və müalicəvi müəssisələrin yaradılması üçün ərazilər mövcuddur. Eyni zamanda, xidmət sahələrinin geniş seqmenti inkişaf etdirilməli, burada otellər kompleksi tikilməli, ictimai iaşə müəssisələri yaradılmalı və xidmətin ən yüksək səviyyədə təşkili təmin olunmalıdır [6].

Qarabağın iri rayonlarından, həm də əsas mərkəzlərindən biri olan Ağdam şəhərinin və Ağdam rayonunun inkişaf etdirilməsi kompleks şəkildə baxılmaqdadır. Artıq Ağdam şəhərinin baş planı təsdiq olunmuş və ölkənin dördüncü iri şəhəri olacaq Ağdam şəhərinin tikintisinə başlanılmışdır. Şəhərin mərkəzində bir çox obyektlərin, o cümlədən səhiyyə və təhsil obyektlərinin, yaşayış massivinin tikilməsinə start verilmişdir. Ağdamda ölkə Prezidentinin Qarabağda (Şuşa şəhəri istisna olmaqla) xüsusi nümayəndəliyinin iqamətgah ofisi yaradılmış və burada bütün müasir texnologiyalar tətbiq edilmişdir. Qarabağda yeni regional idarəetmə prinsipləri formalaşmalaşdırıması və onun əsas elementlərinin adaptivliyinin yoxlanılması prosesləri gedir. Nəticədə bürokratik baryerlərə malik olan əvvəlki idarəçilik metodları burada artıq yenilənməkdədir. Müasir çevik və insanların rahat işləməsi, sahibkarlığın və biznesin, investisiya mühitinin daha əlverişli olmasına imkan verən idarəçilik forması və bürokratiyadan uzaq olan idarəetmə metodları tətbiq olunmaqdadır. Ağdamda, eyni zamanda geniş sənaye infrastrukturu yaradılmaqdadır və Ağdam sənaye parkının təməli qoyulub, artıq bir çox rezidentlər qeydə alınmışdır. Burada qədim ənənəyə malik olan və məhşur Qarabağ atlarının yeni nəslinin formalaşdırılması, Qarabağ atçılıq ənənəsinin davam etdirilməsi üçün atçılıq kompleksinin də təməli qoyulmuşdur. Ağdamın bir neçə kəndlərinin "ağıllı" kənd layihələri əsasında inşasına başlanmışdır [7]. Bütün bunlar yaxın perspektivdə Ağdam rayonunun iqtisadiyyatının formalaşdırılmasında, sosial-iqtisadi inkişafının təmin edilməsində önəmli rol oynayacaqdır. Eyni zamanda, Ağdamda kənd təsərrüfatının inkişafı istiqamətində əsaslı addımlar atılmaqdadır. Artıq minalardan təmizlənmiş, mənfur düşmənin işğala qədər olan dövrdəki istifadə etdiyi taxılçılıq sahələrinin əkilməsinə və burada kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə başlanılmışdır [8]. Taxıl zəmiləri salınmış və bu istiqamətdə potensialın yüksək olması nəzərə alınmaqdadır. Ağdamda kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsi, həmçinin tikinti materialları müəssisələrinin və digər sənaye müəssisələrinin yaradılması perspektivlərini də daha çox qeyd etmək mümkündür. Qarabağın ikinci böyük şəhəri olan - Füzuli şəhərinin Baş Planı artıq təsdiq olunmuşdur və şəhərin tikintisinə başlanılmışdır. Şəhərin mərkəzində həm sosial

obyektlər, həm də əhalinin məşğulluğu baxımından mühüm əhəmiyyət kəsb edən sosial-iqtisadi inkişaf mənbələrini formalaşdıran istehsal və xidmət infrastrukturun yaradılması istiqamətində, xüsusilə nəqliyyat infrastrukturunun formalaşdırılması istiqamətində iri layihələr reallaşdırılır. Regionun ən iri layihəsi olan Füzuli Beynəlxalq Hava Limanı artıq istismara verilmişdir və bu Hava Limanının Qarabağın hava qapısı da adlandırılır. Eyni zamanda, Əhmədbəyli-Füzuli-Şuşa zəfər yolu sürətlə tikilməkdədir. Yaxın perspektivdə burada dörd zolaqlı, çoxsaylı tunelləri və keçidləri, yol ötürücüləri olan Əhmədbəyli-Füzuli-Şuşa zəfər yolu istismara veriləcəkdir. Bu zəfər yolunun tikintisindən sonra Şuşaya gediş-gəliş xeyli asanlaşacaqdır və təhlükəli relyeflərdən keçən yollar daha abad və tunellər vasitəsilə qısaldılan bir zəfər yoluna çevriləcəkdir. Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsi regionda yeni reallıqlar yaratmşdır. Burada nəqliyyat-logistika infrastrukturunun yaradılması, regionun investisiya cəlbediciliyinin artırılması, xarici investorların cəlb olunması, biznes-sahibkarlıq strukrularının Qarabağa gəlməsində bu Beynəlxalq Hava Limanının böyük rolu vardır. Həm də müxtəlif dünya ölkələrindən bu regiona turistlərin gəlməsinə, eyni zamanda dünyanın müxtəlif yerlərində yaşıyan 40 milyondan çox soydaşlarımızın Qarabağa gəlməsi üçün çox ciddi və vacib hava nəqliyyatı infrastrukturu yaradılmışdır. Füzuli rayonunda ənənəvi iqtisadiyyat sahələri baxımından üzümçülüyün, taxılçılığın, baramaçılığın və digər iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar vardır. Eyni zamanda, rayonun müxtəlif ərazilərində də sənaye müəssisələrinin inkişaf etdirilməsi imkanları vardır. Xüsusilə, Horadiz şəhərində rayonlararası bazaların və müəssisələrin, həm də emal istiqamətli müəssisələrin salınması potensialı mövcuddur. Artıq Horadiz qəsəbəsi Horadiz şəhərinə çevrilmiş və uzun illərdir ki, Füzuli rayonunun mərkəzi funksiyasını yerinə yetirir. Burada müasir şəhər infrastrukturu yaradılmışdı və bütün bunları nəzərə alınaraq yaxın onilliklərdə Füzuli rayonunda Horadiz şəhəri inkişaf etdirilməklə, işğaldan azad olunmuş ərazilərin reablitasiyası nəticəsində biz Qarabağın çox güclü və strukturu geniş olan iqtisadiyyata malik bir Füzuli rayonunu görə biləcəyik.

**Qarabağın Bərdə, Tərtər və Ağcabədi rayonlarının inkişaf etdirilməsi perspektivləri və istiqamətləri**

Bərdə, Tərtər və Ağcabədi rayonların hər üçü böyük əhalisi olan rayonlardandır. Burada suvarılan torpaqlar hesabına kənd təsərrüfatının inkişaf etdirilməsi və heyvandarlığın təşkili üçün çox böyük imkanlar vardır. Eyni zamanda, kifayət qədər meyvə bağları, yəni meyvəçiliyin müxtəlif meyvələrinin inkişaf etdirilməsi, tərəvəzçiliyin genişləndirilməsi istiqamətində münbit şərait vardır. Əvvəldə qeyd etdiyimiz kimi, əhali resurslarının da kifayət qədər olduğunu nəzərə alsaq Bərdə şəhərinin və Bərdə rayonunun Qarabağın çox mühüm sosial-iqtisadi inkişaf impulsları olan bir ərazisi kimi qiymətləndirə bilərik. Hesab edirik ki, Bərdə rayonunun inkişaf etdirilməsində burada mövcud olan resurslar əsasında iqtisadiyyat strukturunun formalaşmasına ciddi ehtiyac vardır. Belə ki, heyvandarlığın bütün seqmentlərinin inkişaf etdirilməsi, müvafiq heyvandarlıq komplekslərinin yaradılması, "ağıllı" heyvandarlıq fermalarının və təsərrüfatlarının təşkili, ət və ət məhsulları, süd və süd məhsulları, kənd təsərrüfatı məhsulları və iri emal müəssisələrinin tikilməsinə ehtiyac vardır. Bu həm Bərdə şəhərinin və Bərdə rayonuna daxil olan kəndlərin sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, həm də bütövlükdə Qarabağın inkişafının intensivləşdirilməsinə, əhalinin yaşayış səviyyəsinin artırılmasına və məşğulluq problemlərinin həll edilməsinə, regionda demoqrafik proseslərin daha əlverişli şəkildə tənzimlənməsinə və əhalinin daha yaxşı yaşaması üçün əlavə tədbirlərin görülməsinə, sosial və iqtisadi infrastrukturun

gücləndirilməsinə, səhiyyə və təhsil infrastrukturu üçün əlavə imkanların formalaşdırılmasına şərait yarada bilər. Ağcabədi rayonununda da kənd təsərrüfatı və aqrar səhanin geniş seqmentdə təmsil olunması imkanları vardır. Ağcabədi rayonunun geniş suvarılan torpaqlarında kənd təsərrüfatının əksər istiqaməntlərinin, o cümlədən pambıqçılığın inkişaf etdirilməsi üçün çox güclü potensial mövcuddur. Burada tut bağlarının genişləndirilməsi, baramaçılığın inkişafı üçün əlverişli şərait vardır. Amma daha çox resurslar və ənənəvi məşğulluq sahəsi olan heyvandarlıqla, ilk növbədə qoyunçuluğun inkişaf etdirilməsi, yun tədarükü üzrə müəssisənin yaradılması və yun emalı üzrə, həm də pambıq məhsulunun emalı üzrə pambıqtəmizləmə zavodları şəbəkəsinin, həmçinin tekstil məhsullarının istehsalı ilə bağlı yüngül sənaye müəssisələrin salınması baxımından Ağcabədi rayonunda böyük perspektivlər diqqət çəkir. Tərtər rayonunda həm təbiət güşələrinin gözəlliyi, meyvə bağlarının və çoxlu sayda meyvə növlərinin yetişməsi, bu məhsullara ənənəvi bazarlarda tələbatının yüksək olmasını nəzərə alınmalıdır. Bundan əlavə, Tərtər rayonunda mövcud resurslardan səmərəli istifadə etmək üçün əhalinin su ilə təminatı problemləri daha yüksək və etibarlı şəkildə həll edilməli, torpaqların suvarılması üçün meliorasiya infrastruktur yaradılmalı və həm də, əvvəldə bildirdiyimiz kimi, emal müəssisələri şəbəkəsi formalaşdırılmalıdır. Meyvə və tərəvəzlərin emalı ilə bərabər, tikinti materiallarının isehsalı, kənd təsərrüfatı məhsullarının geniş çeşiddə emalına imkan verən emal müəssisələrinin yaranması perspektivləri vardır [9]. Bunun üçün həm əhali resursları, həm iqtisadi və təbii resurslar mövcuddur. Bütün bunların həll edilməsi üçün Tərtər rayonunun sosial-iqtisadi inkişafını özündə ehtiva edən ayrıca bir proqramın hazırlanması və icra edilməsi vacibdir.

Qarabağda sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün sahibkarlığın inkişafına ciddi ehtiyacın olduğunu qeyd etmək mümkündür: yeni və müasir sahibkarlıq subyektlərinin yaradılması təşkilati, texniki və sosial-iqtisadi üstünlüklərin əldə olunmasına töhfə verəcəkdir; davamlı rəqabət qabiliyyəti çərçivəsində problemlərin və maraqların birgə həlli; əmlakdan rasional istifadə; istehsal və xidmət sahələrində bələdiyyələrin rolunun genişləndirilməsi; yeni texnikanın, texnologiyanın və İKT-nin tətbiqinə əlverişli şəraitin yaradılması; məqsədli innovasiya layihələrinin birgə həyata keçirilməsi; istehsal, enerji və nəqliyyat xərclərinin minimuma endirilməsi; istehsal prosesində və maddi-texniki təchizatda qənaət prinsipinin tətbiqi; maliyyə imkanlarının və ixrac potensialının genişləndirilməsi; innovasiyaların idarə edilməsinin mütərəqqi üsullarının geniş tətbiqi; kənd təsərrüfatı texnologiyaları, sanitar və fitosanitar xidmətlərin vahid məkan və ərazidə kombinasiyasının həyata keçirilməsi; məhsulun istehsalının, emalının və satışının yekun nəticəsi nəzərə alınmaqla əməyin stimullaşdırılması; Qarabağda xarici və birgə müəssisələrin, ərazi klasterinin, regional biznes assosiasiyalarının, maliyyə-sənaye qruplarının, biznes inkubatorların, startapların və digərlərinin təşkili, o cümlədən qadın sahibkarlığının inkişafı. Hazırda əsas məqsəd Qarabağ iqtisadi rayonuna daxil olan inzibati vahidlərin inkişaf etdirilməsi, onların resurs potensialından daha səmərəliliyin təmin olunmasıdır. Bunlarla bağlı bir sıra məsələləri ümumiləşdirmik: Qarabağ iqtisadi rayonuna daxil olan inzibati vahidlərin sosial-iqtisadi inkişaf istiqamətləri üzrə layihələr planlaşdırılarkən və icra olunarkən bu layihələrin həmin rayonlarla olan bağlılığı və inteqrativ əlaqələri multiplikativ təsiri araşdırılmalı və qiymətləndirilməlidir; Qarabağ iqtisadi rayonuna daxil olan hər bir rayonun ənənəvi məşğulluq sahələrinin inkişaf etdirilməsi ilə yanaşı, müasir və “ağıllı” texnologiyalar əsasında müəssisələr şəbəkəsinin və xüsusilə, emal müəssisələrinin yaradılması prioritetlik təşkil etməlidir və regionda istehsal olunan məhsulların, ilk növbədə aqrar məhsulların regional və dünya bazarlarına çıxarılması, əsas etibarilə ənənəvi olan postsovet respublikalarının

bazarlarına çıxarılması üçün çevik infrastruktur və fəaliyyət ixrac mexanizmi işlənilməli, ixracın stimullaşdırılması üçün xüsusi dövlət dəstəyi mexanizmləri formalaşdırılmalı və daha təsirli tədbirlər görülməlidir.

**Nəticə**

Vətən Müharibəsindən sonrakı dövrdəki real vəziyyətə əsaslanaraq, Azərbaycan yaxın gələcəkdə Qarabağın sosial-iqtisadi inkişafının və dirçəlişinin təmin edilməsini qarşısına məqsəd qoyulub. Bu mürəkkəb vəzifəni sürətləndirmək üçün daha əsaslı elmi-iqtisadi yanaşmalar və praktiki mexanizmləri əks etdirən təkliflər hazırlanmalı və diqqətin aşağıdakılara yönəldilməsi səmərəli ola bilər: dövlət və cəmiyyət arasında sosial məmnunluq üçün vahid platforma və mühitə uyğun olaraq, müharibədən sonrakı şəraitdə həyata keçirilməli olan tədbirlərin və məqsədlərin müəyyənləşdirilməsi; Vətən Müharibəsindən sonrakı şəraitdə mövcud problemlərin həlli ilə bağlı hər bir istiqamət üzrə perspektivlər və məqsədlər müəyyən edilməklə məqsədli dövlət proqramlarının hazırlanması və fəaliyyət mexanizmlərinin tətbiqi; müharibə və münaqişələrin, humanitar, sosial-iqtisadi və ekoloji fəlakətlərin nəticələrinin obyektiv qiymətləndirilməsi və öyrənilməsi, onlara lazımi hüquqi qiymət verilməsi, bu barədə ictimaiyyəti və beynəlxalq təşkilatları məlumatlandırmaq üçün sistemli və davamlı tədbirlərin görülməsi, hərbi cinayətkarların cəzalandırılması üçün beynəlxalq məhkəmələrdə ciddi iş aparılması; Qarabağın dirçəldilməsi prosesinin sürətləndirilməsi məqsədilə və rayonun sosial-iqtisadi inkişafının məqsədləri nəzərə alınmaqla maliyyə təminatının və investisiyaların cəlb edilməsinin zəruri mexanizmlərinin həlli istiqamətində təsirli və səmərəli tədbirlərin görülməsi; ərazilərin bərpası və inkişafı ilə məşğul olan yerli və xarici şirkət və müəssisələrin fəaliyyəti üçün şəffaf və stimullaşdırıcı investisiya və innovasiya mühitinin, Qarabağın bərpası və inkişafı üzrə işlərin davamlı maliyyələşdirilməsi mexanizmlərinin yaradılması; Qarabağda "tikinti bumu" qaçılmazlığını və ümumilikdə tikinti materiallarına tələbatın sürətlə artdığını nəzərə alaraq, həmin iqtisadi rayonda tikinti materiallarının bir neçə istiqaməti üzrə klasterlərin yaradılması; Qarabağın turizm və rekreasiya potensialına əsaslanaraq, xüsusi güzəştlər paketi ilə turizm və rekreasiya zonalarının təşkili; Qarabağın yüksək kənd təsərrüfatı potensialına əsaslanaraq, yerli tələbatların ödənilməsi ilə yanaşı, ixracyönümlü aqrar sənaye parklarının yaradılması; Qarabağ iqtisadi rayonunu güclü iqtisadi potensialını nəzərə alaraq, həmin potensialdan səmərəli istifadənin təmin edilməsi üzrə dövlət proqramlarının hazırlanması.

**Ədəbiyyat**

1. Алиев, Ш.Т., Меликова, Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий/ IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков».– Россия, г. Москва, 28 марта 2022 года - С.277.
2. Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Bakı, 2022, "AzPrint" nəşriyyatı, 217 s.
3. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с.148-155. - https://www.elibrary.ru/item.asp?id=48808624
4. Алиев, Ш.Т., Меликова, Л.А. Стратегическая важность возрождения Шуши в интенсификации социально-экономического развития Карабахского экономического района/ Материалы X Международной Научно-Практической Конференции. Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе. Москва (РФ), 22 июня 2022 года – с. 321-329.

5. Növrəsli, T.N., İmanova A.İ. Qarabağ iqtisadi rayonunuda turizmin inkişafina təkan verən prioritetli sahələri. International online scientific journal. 2022 / Volume: 2 – p. 184-188. DOI: https://www.doi.org/10.36719/2789-6919/08/184-188.
6. Rəsulova, G.R. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad olunmasının və onların bərpa edilməsinin maliyyə təminatı. Audit, 2021, 4 (34), s.60-69.
7. Aliyev Sh., Megits N., Pustovhar S., Bielialov T., Prokopenko O. The «Five-Helix» Model as an effective way to develop business in Industry 4.0 of selected countries// Journal of Eastern European and Central Asian Research (JEECAR), Minneapolis, USA, 2022, № 9(2), p. 357-368. https://doi.org/10.15549/jeecar.v9i2.920.
8. Firdovsi F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpasi istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdirilmasi// Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34) – s. 23-37.
9. Cabbarlı, L.A. İşğaldan azad olunan ərazilərdə kənd təsərrüfatinin inkişaf istiqamətləri// Kənd təsərrüfatının iqtisadiyyatı, 2020, № 4 (34). – s.52-57.

***Зумруд Джумшуд гызы Насибова***
***диссертант Азербайджанского Университета Кооперации***

***Факторы, обуславливающие приоритеты развития аграрной сферы в процессах экономического районирования в Азербайджане***

***Резюме***

*Целью исследования – является изучение факторов, обуславливающих приоритеты развития аграрной сферы в процессах экономического районирования в Азербайджане в современных условиях. В статье исследована особенность социально-экономического развития Карабахского района в современных условиях. Дана краткая характеристика каждого административно центра, административной единицы, входящие в Карабахский экономический район. Оценены и анализированы природные и экономические ресурсы для развития Карабахского экономического района. Рассмотрена особенность социально-экономического развития Карабаха в советском периоде. Раскрыты основные проблемы и пути развития отдельных районов, входящих в Карабахский экономический район. Анализированы проблемы первых годов после восстановления независимости Азербайджаном. Раскрыта социально-экономическая и политическая значимость ускорения развития Карабаха после второго возвращения к власти Азербайджана общенационального лидера Гейдара Алиева. Рассмотрены и приняты комплексные меры по восстановлению и возрождению Карабаха после освобождения от армянской оккупации. Методология исследования – в основном, сформирована из научных экономических методов – синтеза, анализа, сравнения и обобщения. Кроме того, учтены подходы и взгляды различных исследователей на рассмотрение вопросов экономического районирования и особенностей этих процессов. Практическая значимость исследования – отражается в разработке и реализации комплексных мероприятий по реализации приоритетов развития аграрной сферы в процессах экономического районирования Азербайджана в контексте глобальных проблем обеспечения продовольственными продуктами. Результаты исследования - заключаются в оптимальном определении, влияющих на приоритетность факторов развития аграрной сферы в процессах экономического районирования Азербайджане. Оригинальность и научная новизна исследования – Отдельно рассмотрена возможность формирования структуры экономики города Шуша с учётом развития экономики культуры, туризма и сектора услуг. Рассмотрен крупный потенциал города Агдам, который строится заново, и охарактеризованы процессы развития промышленной и социальной инфраструктуры. Особо отмечены роль Физулинского международного аэропорта, который имеет стратегическое значение и выступает в качестве воздушных ворот Карабаха. Рассмотрены реальные потенциалы Физулинского и Агдамского района по развитию ряда отраслей, в том числе, сферы виноделия, хлопководства,*

*шелководства, животноводства и пр. Также рассмотрен потенциал Барды, Агджабеди и Тертерского района, которые ныне входят в состав Карабахского экономического района, отмечены приоритетные направления их развития. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.*

***Ключевые слова:*** *Карабах, Карабахский экономический район, социально-экономическое развитие, Шуша, Агдам, Физули, перспективы развития Карабаха.*

***Zumrud Jumshud Nasibova***
***dissertation of Azerbaijan University of Cooperation***

***Factors that determine the priorities for the development of the agrarian sphere in the processes of economic zoning in Azerbaijan***

***Summary***

*Purpose of the research is to study the factors that determine the priorities for the development of the agricultural sphere in the processes of economic zoning in Azerbaijan in modern conditions. The article examined the peculiarity of the socio-economic development of the Karabakh region in modern conditions. A brief description of each administrative center, administrative unit, included in the Karabakh economic region is given. Natural and economic resources for the development of the Karabakh economic region were analyzed. The peculiarity of the socio-economic development of Karabakh in the Soviet period is considered. The main problems and ways of development of certain regions included in the Karabakh economic region are disclosed. The problems of the first years after the restoration of independence by Azerbaijan were analyzed. The socio-economic and political significance of the acceleration of the development of Karabakh after the second return to power of Azerbaijan of the national leader Heydar Aliyev is revealed. Comprehensive measures were considered and taken to restore and revive Karabakh after liberation from armenian occupation. Research methodology - is mainly formed from scientific economic methods - synthesis, analysis, comparison and generalization. In addition, the approaches and views of various researchers on the consideration of economic zoning issues and the peculiarities of these processes are taken into account. The practical significance - of the study is reflected in the development and implementation of comprehensive measures to implement the development priorities of the agricultural sphere in the processes of economic zoning of Azerbaijan in the context of global problems of providing food products. Result of the research consist of optimal determination of factors affecting the priority of the development of the agricultural sphere in the processes of economic zoning of Azerbaijan. Originality and scientific novelty of the research - separately, the possibility of forming the structure of the economy of the city of Shusha was considered, taking into account the development of the economy of culture, tourism and the service sector. The large potential of the city of Agdam, which is being rebuilt, was considered and the processes for the development of industrial and social infrastructure were described. The role of the Fizuli International Airport, which is of strategic importance and acts as the air gate of Karabakh, is especially noted. The real potentials of the Fizuli and Agdam regions for the development of a number of industries, including the spheres of winemaking, cotton growing, sericulture, animal husbandry, etc. were considered. The potential of Barda, Agjabedi and Terter region, which are now part of the Karabakh economic region, was also considered, priority areas of their development were noted. Recommendations and proposals have been made on the issues under consideration.*

***Key words:*** *Karabakh, Karabakh economic region, socio-economic development, Shusha, Agdam, Fizuli, prospects of Karabakh development.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 16.12.2022.***
***Çapa qəbul olunub: 22.12.2022.***